

# Xalqı öz həqiqi liderinə qovuşduran tarix

***Müstəqillik dövrü təqviminə 15 İyun Milli Qurtuluş Günü kimi daxil olmuş bayram Azərbaycan xalqının çağdaş ictimai-siyasi həyatında və ümummilli taleyində ən önəmli və unudulmaz tarixlərdən biridir. 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan xalqının və dövlətinin həyatında müstəsna xilaskarlıq missiyası gerçəkləşdi. Ümummilli liderin yeni qazanılmış müstəqillyi itirilmək təhlükəsi ilə üzləşmiş ölkədə həyata keçirdiyi operativ-radikal tədbirlər hərbi-siyasi böhranı aradan qaldıraraq qısa müddətdə sabitlik və dirçəlişi təmin etdi.***

1993-cü ilin 15 iyun tarixindən 29, 1997-ci ilin iyun ayında həmin tarixin milli qurtuluş bayramı elan edilməsindən isə 25 il keçir.

Tarixçilər haqlı olaraq göstərirlər ki, bu günün mahiyyətini dərk etmək və müvafiq nəticələr çıxararaq ibrət almaq müstəqil dövlətimizin bugününü, gələcək inkişaf perspektivlərini müəyyənləşdirmək baxımından vacibdir. Bunun üçün, ilk növbədə 15 iyunadək olan müstəqillik illərindəki ictimai-siyasi şəraitə və ondan sonrakı dövrə nəzər yetirmək zəruridir.

Hər il ölkəmizdə Milli Qurtuluş Günü kimi ümummilli təntənələrlə qeyd edilən bu tarixi gün bir sıra səciyyəvi xarakteri ilə diqqəti cəlb edir. Azərbaycanın tərəqqi yoluna çıxmasının və dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanınmasının təməlləri bu qayıdışdan başlanır. Eyni zamanda, ölkəmizin müstəqil siyasətlə beynəlxalq aləmdə layiqincə təmsil olunması da məhz bu tarixlə bağlıdır. Dövrün hadisələrinə və o zaman baş verənlərin siyasi xronalogiyasına diqqət edəndə belə bir qənaət hasil olur: o günlərdə ulu öndər dahiyanə qərarları və sarsılmaz iradəsi ilə tarixin hökmü ilə bərpa edilmiş Azərbaycan dövlətçiliyini xilas etmiş və parçalanmaq, yox olmaq təhlükəsindən xilas etmişdir. Bu tarixi nailiyyət 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə mümkün olmuşdur.

Doğrudan da, o böhranlı günlərdə və aylarda xalqımız və dövlətimiz qarşısında ən böyük və zəruri missiyanı yerinə yetirmiş ulu öndər dövlət müstəqilliyinin qorunub saxlanması üçün heç kəsin və heç bir qüvvənin bacara bilməyəcəyi tarixi vəzifənin öhdəsindən xalqı səfərbər etməklə gəlmişdir. Ümummilli liderin dediyi kimi, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan da çətin olmuşdur.

15 iyunadək olan şəraitə baxış 1991-ci il oktyabtın 18-də dövlət müstəqilliyi bərpa edilən Azərbaycan Respublikasına qarşı bir tərəfdən Ermənistanın əsassız ərazi iddiaları ilə bir neçə il əvvəl başladığı hərbi təcavüz davam edir, bu respublikanın tarixi torpaqlarında yaşayan azərbaycanlılar qovularaq qaçqına çevrilir, təcavüzün gedişində ərazilərimiz bir-birinin ardınca işğal edilir, tarixi mənsubiyyətini itirmək üçün yaşayış məntəqələri yandırılır, əhali məcburi köçkün edilir, digər tərəfdən isə hakimiyyət uğrunda müxtəlif qruplaşmalar arasında amansız mübarizə gedirdi.

1992-ci ilin may ayında Azərbaycan Xalq Cəbhəsi silahlı yolla hakimiyyəti devirdi. Ölkədə AXC – Müsavat iqtidarı quruldu. Lakin yeni hakimiyyət Azərbaycanın problemlərini nəinki həll edə bilmədi, əksinə, onları daha da dərinləşdirdi. İdarəçilikdə səriştəsizlik, problemləri yanlış qoyma və həllinə primitiv, məhdud yanaşma, idarəçilik bacarığının olmaması, hakimiyyətin qanunverici, icraedici və məhkəmə qanadları arasında qarşıdurma ölkəni böhrana gətirib çıxardı.

Dövlət müstəqilliyinin bərpasında ötən müddət ərzində bir neçə dəfə hökumət dəyişmişdi. Yürütdüyü siyasətlə xalqdan ayrı düşmüş hakimiyyət ona bəslənən ümidləri doğrulda bilmirdi. Cəbhədəki uğursuzluqlar birbirinin ardınca gəlirdi. Hakimiyyət mövcud problemləri həll etmək iqtidarında deyildi. Ölkənin şimalında və cənubunda xaricdən qızışdırılan separatçılıq hərəkətləri Azərbaycanı didib-parçalayır, milləti və ölkəni dağıdan, dövlətin varlığını təhdid edən qondarma qurumlar yaradılırdı.

Dövrün tarixi mənzərəsinə nəzər salanda adamı dəhşət bürüyür: Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal altında idi, 1 milyona yaxın soydaşımız doğma yurd-yuvasından didərgin düşmüşdü. Gündən-günə dərinləşməkdə olan siyasi və sosial-iqtisadi böhran nəticəsində dövlətin təhlükəsizliyinin təmin edilməsində hakimiyyət boşluğu yaranmış, ölkə idarəolunmaz durumla üzləşmişdi. Baş alan xaos və anarxiya xalqda o vaxtkı naşı və xəyanətkar rəhbərliyə qarşı inamsızlıq yaratmış, əhalinin gələcəyə olan ümidlərini sarsıtmışdı.

Ermənistanın təcavüzkar planlarının və hücumlarının qarşısının alınmaması xalqı fəlakətlə üz-üzə qoymuşdu. Tarixən təkmilləşli ölkə olmuş Azərbaycan dağılırdı. Bu azmış kimi, 1993-cü il iyunun 4-də Gəncədə vətəndaş qarşıdurması baş verdi. Hərbçilər Bakıya doğru yürüş etdilər. Azərbaycan öz tarixində o zamanadək görünməmiş bir faciənin - qardaşın birbirinin qanının tökülməsi, vətəndaş müharibəsi ərəfəsində idi.

Obyektiv siyasətçi və tarixçilərin vurğuladıqları kimi, Azərbaycan tarixində millət və cəmiyyət heç bir zaman bu qədər qütbləşməmişdi. Hissiyyatlara əsaslanan xarici siyasət yürüdülürdü. Beynəlxalq aləmdə Azərbaycanın səsi eşidilmirdi. Təşkilati, dövlət idarəçilik bacarığına və qabiliyyətinə malik olmayan, xalqın dəstəyini itirmiş hakimiyyət beynəlxalq aləmdə ölkəni təcridçiliyə gətirmişdi. Diplomatiya dostlar əvəzinə daha çox düşmənlər qazandırırdı. Qonşularla münasibətlər gərgin idi. Ölkənin maraqları etibarlı qoruna bilmirdi. Azərbaycan dəhşətli bir vəziyyətə düşmüşdü. Bu, Azərbaycanın iqtisadi, siyasi, hərbi, mədəni, humanitar və psixoloji həyatını tamamilə bürümüş ağır ümumi böhran idi.

Ölkəni ağır şəraitdən kim və necə çıxara bilər? Belə bir tarixi şəxsiyyət, lider varmı? Çoxlu mürəkkəb suallar qarşısında qalan və xilaskar axtarışında olan Azərbaycan xalqının nəzərləri uzun illər boyu yaxşı tanıdığı, dövlət idarəçilik bacarığına və liderlik keyfiyyətinə inandığı Heydər Əliyevə yönəldi və ümidlə ona üz tutdu. Xalqın inamına görə, yalnız Heydər Əliyev Azərbaycan dövlətini məhv olmaqdan, ölkəni parçalanmaqdan, dağılmaqdan xilas edə, xalqı mənəvi-psoxoloji böhrandan çıxara, Ermənistanın davam edən işğalını dayandıra, ölkəni fəlakətə salmış xarici siyasət fəaliyyətini yeni əsaslar üzərində qura bilərdi.

Xalqın təkidli tələbləri qarşısında çarəsiz qalan Azərbaycan rəhbərliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevi Bakıya dəvət etməyə məcbur oldu. Bu, taleyin verdiyi ağır, lakin əbədiyaşar və müqəddəs bir milli vəzifə idi. Bu zaman Bakıda hələ heç bir vəzifə tutmayan, millətin inam yeri olaraq milli liderlik missiyası daşıyan Heydər Əliyev təcili olaraq qiyamın baş verdiyi Gəncəyə getdi. Əhali ilə görüşərək şəraitlə yerində tanış oldu. Bakıya qayıtdı. Ağır bir şəraitdə iyunun 15-də Azərbaycan parlamentinin sədri seçildi.

Məhz belə bir dövrdə Heydər Əliyevin xalqın çağrışına heç bir şərt qoymadan cavab verməsi və siyasi meydanda xilaskarlıq missiyasını gerçəkləşdirməsi dövlətimizi böyük təhlükələrdən xilas etdi. Hadisələrin gedişi və gündən-günə genişlənməkdə olan vətəndaş müharibəsinin təhlükəsini aradan qaldırmaq, siyasi sabitliyi bərpa etmək üçün səfərbər olan Azərbaycan xalqını bu nicata yalnız ulu öndər Heydər Əliyev çatdıra bildi. Onun yenidən hakimiyyətə qayıdışı, 1993-cü il iyunun 15-də Azərbaycan xalqının istəyi və təkidi ilə Azərbaycan Ali Sovetinin Sədri seçilməsi ölkə tarixinə Milli Qurtuluş Günü kimi yazıldı.

Bu, Azərbaycanın ağır fəlakətlərdən, yox olmaq təhlükəsidən qurtulmasının yeganə yolu idi. Hadisələrin sonrakı mərhələsi də təsdiq etdi ki, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqillik yolunda onu inkişafa və irəliyə aparan mərhələ oldu. Ölkədə siyasi sabitliyin bərqərar olması iqtisadi tənəzzülü aradan qaldırdı. Tezliklə çörək növbələri, ərzaq qıtlığı aradan qaldırıldı. Qanunların işləmə mexanizmi təmin olundu, adamların dövlətə və hakimmiyyətə inamının bərpa olunması iqtisadi sektorun, aqrar sahənin, bank sisteminin ahəngdar işləməsinin təminatçısı olmdu. Bütün bunların sayəsində irimiqyaslı iqtisadi islahatlara başlandı.

Atəşkəsin əldə olunması beynəlxalq aləmdə ölkəyə inamı artırdı, ulu öndərin 1994-cü ilin sentyabrında Azərbaycan neftinin dünyaya ixracını təmin edən "Əsrin müqaviləsi"ni imzalaması daha bir uğurlu hadisə idi. Dünyanın aparıcı neft şirkətləri ilə imzalanan bu möhtəşəm layihə Azərbaycanın təkcə iqtisadi sahədə deyil, eləcə də siyasi arenada qazandığı yeni böyük uğur idi. Onun effektivliyini və səmərəsini Azərbaycan xalqı bu gün də görməkdə və faydalanmaqdadır. Bu dünyanı bürüyən böhranlardan, eləcə də hələ də vidalaşmadığımız pandemiyada böhranın aradan qaldırılmasında önəmli vasitə oldu.

Qeyd edilməlidir ki, dünya xəritəsində o qədər də böyük olmayan Azərbaycan uğurlu siyasəti ilə təkcə öz vətəndaşlarının yox, bir çox ölkələrin əhalisinə də yardımçı oldu. Ölkəmizdə enerji təhlükəsizliyinin möhkəm təməlləri də o illərdə quruldu. Ulu öndər Heydər Əliyev 1994-cü ildə bazar iqtisadiyyatına keçid şərtlərini yaratmaqla ölkədə tam azad biznes mühitini formalaşdırdı. Bunun dünyaya fəal inteqrasiya üçün nə qədər vacib olduğunu sübut etməyə ehtiyac olmasa da, az zaman kəsiyində həmin siyasət öz bəhrəsini verdi. Yerli və xarici sərmayəçilərin hüquqlarının etibarlı şəkildə qorunması ökəyə kapital axınını sürətləndirdi və artırdı. Azad bazar münasibətlərini tənzimləyən hüquqi normativ aktların və sənədlərin hazırlanması və qanuni qüvvəyə minməsi inkişafın hərəkətverici qüvvəsi oldu.

Bu gün Azərbaycan sivil dünyanın önəmli bir parçasıdır və Qafqaz regionunda xüsusi mövqeyi və çəkisi olan lider dövlətdir. Böyük Türk dünyasının qüdrətli ölkəsi kimi qəbul edilən Azərbaycan cənab Prezident İlham Əliyevin uzaqgörən siyasəti, düşünülmüş islahatları və müdrik qərarları ilə yeni inkişaf yolundadır. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu bu yolun davam etməsi dövlətimizin və xalqımızın beynəlxalq miqyasda mövqelərini daha da möhkəmləndirməkdədir.

Yüzillər keçəcək, Azərbaycan xalqı və dövləti mövcud olduqca dövlətimizi güclü və qüdrətli etmək istəyən, qarşıya çıxan problemləri həll etməyə çalışan rəhbərlər daim Heydər Əliyevin milli dövlətçilik və siyasi milliyyətçilik irsinə müraciət edəcəklər. Beləliklə, Azərbaycan xalqı və dövləti durduqca Heydər Əliyev də yaşayacaq, milli dövlətçilik haqqında nəzəri irsi və praktiki təcrübəsi daim canlı olacaq.

Məhz ulu öndərin siyasi kursunu uğurlu davamı sayəsində Azərbaycan dünyanın hərtərəfli inkişaf edən və bütün beynəlxalq aləmdə böyük nüfuz qazanan, artan potensialı ilə bölgənin ən qüdrətli dövləti olub. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm zəfər də bu uğurların bir daha təsdiqidir. İnanırıq ki, xalqımız və dövlətimiz bundan sonra da Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə daha böyük xariqələrə imza atacaq, düşmənin xarabalıqlara çevirdiyi əzəli torpaqlarımızda – Qarabağda yeni həyat quruculuğunu sona qədər davam etdirəcək.

***Zaur ABDULLAYEV,***
***Ədliyyə Nazirliyi Nərimanov Rayon İcra Şöbəsinin rəisi, ədliyyə müşaviri***